

Vaqif YUSİFLİ

# ШЯЩИДЛИЙИН ЗИРВЯСИ

## (AZƏRBAYCAN ƏDƏBİYYATINDA NƏSİMİ OBRAZI)

Mən aşiq, soy ilandı,
Şahmar da soy ilandı.
Nəsimitək bu aşiq
Yolunda soyulandı.

Qədim bir bayatıdan gələn bu səda əqidəsi yolunda edam olunan, dərisi soyulan İmadəddin Nəsimiyə-bu dahi şairimizə həsr olunan ilk folklor nümunəsidir ki, əsrlər keçdikcə xalqın yaddaşından silinməyib. Klassik şeirmizdə isə Nəsiminin obrazı – onun həyatı, şəhidlik zirvəsinə yüksəlməsi heç bir əsərdə köklü şəkildə öz əksini tapmamışdır. Sadəcə olaraq, onun adı ustad kimi xatırlanmış, şeirlərinə nəzirələr yazılmış, mənsub olduğu hürufizm təriqətinə tərəf-müqabillik ifadə olunmuşdur. Nəsimiyə müraciət keçən əsrin yetmişinci illərindən başlayaraq, onun anadan olmasının 600 illiyilə əlaqədar ədəbiyyatın mövzusuna çevrilmişdir.

Xalq yazıçısı İsa Hüseynovun «Məhşər» romanı ilə Azərbaycan nəsrində Nəsimi obrazının ilk mükəmməl nümunəsi yaranır. «Məhşər»ə qədər İsa Hüseynov müharibə dövrü həqiqətlərindən, əllinci-altmışıncı illərin mürəkkəb və ziddiyyətli hadisələrindən söz açan povest və romanlarını yazmışdı. Görəsən, İsa Hüseynovu Azərbaycan tarixinin ən mürəkkəb, ən ziddiyyətli, müharibələr, fatehlərin qanlı toqquşmaları, bir-birinə zidd ideoloji cərəyanların mübarizəsi ilə şərtlənən XIV-XV əsrlərə – Nəsimi dövrünə hansı istək, hansı məqsəd çəkib aparmışdı? Əlbəttə, İsa Hüseynov «Məhşər»ə qədər tarixi mövzuda «26-lar» və «Ulduzlar sönmür» bədii filmlərinin ssenarilərini yazmışdı. Amma bu filmlərdə (xüsusilə birincisində) İsa Hüseynov sovet dövrünün ideoloji ştamplarından yaxa qurtara bilməmişdi. «Məhşər» isə sırf reallıqlar və bədii təxəyyülün, yaradıcı yanaşmanın birgəliyindən yarandı.

«Məhşər» (1972-1976) Azərbaycan tarixi romanının «qızıl dövrü»nün («Pərvanə», «Dəli Kür», «Qarlı aşırım»la başlanan, az sonra «Mahmud və Məryəm», «Fətəli fəthi», «Qətl günü» «Köç»romanları ilə daha da yeniləşən) parlaq bir nümunəsi idi. Bu romanla İsa Hüseynov şəxsiyyətinin, bəlkə də, ən mühüm bir xarakteri ortaya çıxırdı – o, tarixə bəzi romançıların «salnamə» prinsipi ilə yanaşmamışdı, tarixi müasirliyin gözü ilə oxumaq, incələmək prinsipini əsas götürmüşdü. İsa Hüseynov tarixçi deyildi, lakin tarixi canlı bir proses kimi, mümkün qədər obyektiv şəkildə mənalandırmaq üçün Tolstoy, Hüqo, Ordubadi və Çəmənzəminli prizmasından yanaşmağı ən doğru yol bilmişdi. Tarix tarixliyində qalır, lakin İsa Hüseynovun ədəbi müəllimi Mehdi Hüseynin dediyi kimi: «Tarixçi dövrün ümümi ictimai münasibətlərini əks etdirirsə, yazıçı ən çox dövrün psixologiyasını təşrih edir. Tarixçi psixoloq deyildir. Lakin sənətkar psixoloq olmalıdır. Bunsuz tarix elmi yaransa da, tarixi-bədii əsər yarana bilməz».

Nəsimi və onun həyatı, hürufiliyin banisi Nəiminin fikir, ideya dünyası, onun faciəli qətli, «rəncbər şah» Şirvanşah İbrahim, fateh Teymurləng, dini etiqadların qulu olan Şeyx Əzəm-bu tarixi obrazların hər birinin çılğın ehtirasları, fəlsəfi dünyabaxışların mübarizəsi, müharibələr, qırğınlar-bir romanda bütün bunları kəskin münaqişələr, bir-birinə zidd və barışmaz münasibətlərlə canlandırmaq sənətkardan, doğrudan da, əsl ədəbi hünər tələb edirdi və İsa Hüseynov ilk tarixi romanında bu missiyanın öhdəsindən gələ bildi.

Ordubadi Qılıncın və Qələmin vəhdətini əks etdirmək istəmişdi, amma onun romanında Qələm Qılıncdan daha kəsərli nəzərə çarpırdı, Nizaminin şairliyi Qızıl Arslanın və Fəxrəddinin qılıncından üstün görünürdü, Nizami dühası bütün problemlərin önündəydi, «Məhşər»də isə gah Qılınc, gah da Qələm qalib gəlir. Sonuncunun qələbəsi təfəkkürün – hürufi ideyalarının qələbəsiydi.

Əsərə yazılan ön sözdə (Əzizə xanım Cəfərzadə) oxuyuruq: ««Məhşər» islam dini əleyhinə yazılmış romandır. Yalançı etiqadlar, din və xurafat, müharibə, qan-qırğın, istibdad, istismar əleyhinə yazılmışdır. İnsanı alçaldan bütün xırdalıqları – nadanlığı, cəhaləti qamçılayır». Bu fikirdə yalnız birinci cümləyə qəti etiraz etmək olar: «İslam dini əleyhinə yazılmış”. Bu romanda islam əleyhinə heç nə yoxdur. Yoxsa Fəzlullah Nəimi edam ərəfəsində deməzdi: «Dinləyin, burda icra edilən hökm Həqq-təalanın öz hökmüdür». Hərçənd ki, «din kitablarında bir olan Allah hüzurunda məhkəmə kimi qələmə verilən məhşərin, cəmi bəşərin ölüb yenidən diriləcəyi barədə iddiaların yalanlığını Fəzl çoxdan sübut edib, cümlə aləm-xaliq əbədidirsə, demək, bəşər də əbədidir» – bu, heç də islamı tənqid etmək deyil.

«Məhşər» gərgin konfliktlər, üz-üzə duran qüvvələrin həm mənəvi, həm də cismani qarşıdurmasını əks etdirən bir əsərdir. Ancaq romanda Nəsimi – Teymur qarşıdurması bu mənada ən kulminasion nöqtədir. «Məhşər» haqqında çox-çox əvvəllər bir məqalə yazmışdım və orada müəllifə iradımı bildirmişdim ki, tarixi sənədlərdə Nəsimi ilə Teymurun görüşü barədə heç bir məlumat yoxdur və bu, tarixi reallığa ziddir. İsa müəllim o məqaləni oxumuşdu. Rastlaşanda söylədi ki, sən nə bilirsən, Teymurla Nəsimi görüşməyiblər, **mən iki fatehi görüşdürmüşəm.** Doğrudan da, İsa müəllimə haqq qazandırıram. Tarixdə belə bir görüş olmayıbsa da, romanda onların üz-üzə gəlməsi labüd idi. Qılınc, müharibə fatehinin söz fatehi ilə, qorxu, zülm «fəlsəfəsi» ilə humanizm, Allahı insanda görmək ideyası öz bədii-fəlsəfi dərkini tapmalıydı. Nəsimi deyir: «Qorxu törətməklə sən özünü məhv edirsən, Əmir! Teymurun sifəti gömgöy kəsilmişdi. İyirmi beş ildən çox idi ki, o öz əliylə adam öldürməmişdi. Amma indi əli öz-özünə silaha uzanıb, arxadan yüyürən bahadırın qılıncını qından çəkdi. Çox pis axsaya-axsaya, tövşüyə-tövşüyə yeriyib, Nəsiminin iki addımlığında dayandıqda yalnız Allah xofuna inamı və özünün törətdiyi qorxuya etiqadı, qarşısındakı müdhiş itaətsizin boynunu vurmaqdan əvvəl nə isə deməyə ehtiyac əmələ gətirdi». Az qala bütün dünyanı öz qılıncına tapındıran Teymurun «fəlsəfəsi» isə güc və qüvvətin – qorxubilməz inadın məntiqini sübut edir: «Xırda həşərat iri həşəratdan qorxur. Gücsüz adam güclüdən. Cəmi bəşər də bir olan Allahdan qorxur!- dedi. Qorxu üstündə bərqərar deyilmi dünyamız?». Nəsimi isə humanizm və kamillik ideyasından çıxış edir: «Güclü, gücsüz insan yoxdur, əmir! Cahil var, kamil var. Cahilin tərzi-həyatı heyvanların tərzi-həyatına uyğundur. Çünki hər ikisi idrakdan məhrumdur. Həqqə qovuşan kamillər isə dünyada qorxunun səbəblərini öyrənirlər. O kamillərdən birisi sənin hüzurundadır, bax gör üzündə qorxudan bir əlamət taparsanmı, Əmir?» Nəsimi Teymuru inandırır ki, Fəzlullah hərb niyyətində deyil, çünki Fəzlullah cümlə bəşəri haqq səltənətində birliyə çağırır. Fəzlullah Nəimi yaşadığı dövrün ən aparıcı, ən mütərəqqi bir ideyasını ifadə edirdi, amma Nəsimisiz bu ideyaları insanların ruhuna aşılamaq, ölüm qorxusu altında belə diz çökməmək inadı mümkün olmazdı. İsa Hüseynov tarixin ona təlqin etdiyi belə bir həqiqəti romanda əks etdirir: Teymur ölkələr fəth edir, özündən də güclü olan başqa bir fatehi-İldırım Bəyazidi məğlub edir, tezliklə ona dünya şöhrəti qazandıracaq ən böyük

qələbəsinə nail olur, lakin «Mənəm Allah» deyən qorxunc qüvvə ilə üz-üzə qaldığını bilincə, özünü məğlub sayır. Nəimi edam olunur, amma Nəimilik yaşayır və bütün Şərqi dolaşıb hürufizmi yayan Nəsimi də az sonra edam olunacaq (Nəsiminin ölüm səhnəsinin təsvirinə İsa Hüseynov ehtiyac duymasa da), amma Nəsimilik də yaşayır.

Bəxtiyar Vahabzadənin «Fəryad» mənzum dramında da elə bu həqiqət təsdiq olunur: «İki dünyaya sığmayan» Nəsiminin mənəvi varlığı yaşayır, Nəsimilik onun ölümündən sonra da həm bir təlim kimi, həm də özünü dərk etmək, ölümə qalib gəlmək ideyası kimi yaşamağa qadirdir. Yaşar Qarayev yazırdı: ««Mənəm Allah» deyən Nəsimi, doğrudan da, öz müasirləri arasında Allah məqamına ucalandan sonra «Nəsimi» və «Allah» sözləri eyniləşir, sinonim olur, sonrakı Nəsimilər daha «mənəm Allah» yox, «mənəm Nəsimi» deyirlər». Çingiz Aytmatov da yazırdı ki, tarixi də müasirlik qədər yaşada bilmək, «keçmişə görə əzab çəkmək» prinsipi Bəxtiyar Vahabzadənin bu şərti-bədii üsulunda özünün qabarıq əksini tapıb. İnsan niyə öz-özünü Tanrı elan edir? Çünki yaşamaq, haqq sözünü demək üçün real həyatda heç bir şərait, heç bir mənəvi qayğı görünmür, odur ki, insan bu heçliyə, bu boşluğa üsyan edir, Nəsimi ideyalarına tapınır, onu Allahla eyniləşdirir. Pyesdə Allah adına söylənilən bu fikirləri əslində Nəsimi öz şeirlərində də ifadə etmişdi:

*Allah! Bilirik, cisim deyil, bəs nədir Allah?*
*Ən yüksək olan haqda, həqiqətdədir Allah.*
*Dondunsa təkamül və gözəllik qabağında,*
*Dərk et, bu təəccübdə, bu heyrətdədir Allah!*

*Vəhdət nə demək? Gizlidir hər zərrədə vəhdət.*
*Bir zərrə ikən küllə qovuşmaq ulu niyyət!*
*Gördüklərimiz zahiridir, bətnə nüfuz et,*
*Batindəki, cövhərdəki fitrətdədir Allah!*

*Son məqsəd «Ənəlhəq»mi? Dilək sözdən umulmaz.*
*Ən yüksək olan zirvəyə mütləq demək olmaz.*
*Bir pillədə durdunsa, «Ənəlhəq» demək olmaz,*
*Ülviyyətə çatmaqdakı niyyətdədir Allah!*

«Fəryad» fəlsəfi-psixoloji dramdır-Yaşar Qarayev də bu pyesi məhz həmin aspektdən təhlil edir və gəldiyi nəticə budur ki, B.Vahabzadə sanki sınamaq istəyib ki, Nəsimi təliminin aynasında müasirləri narahat edən fikir, hiss və duyğular görünürmü? B.Vahabzadənin bir çox poemalarında Həyat və Ölüm fəlsəfi problemi bədii şəkildə, özü də uğurla öz həllini tapıb və «Fəryad»da da «ağrılı, narahat, fəal həqiqət hissi» ilə diqqəti cəlb edir. Pyesdə Nəsiminin özü görünmür, lakin özünü Nəsimi elan edən iki Nəsiminin – həllac Musanın və Turalın simasında Nəsimiliyin varlığı, ölümsüzlüyü təsdiq olunur. Nəsimilik təkcə sadə xalq arasında deyil, zülm və haqsızlıq ocağı saraylarda da beyinlərə, şüurlara hakim kəsilir. Əmirin etirafı: «Hürufi məsləki tutub ölkəni, Tərki-silah etdi öz balam məni!».

Məncə, XX əsr Azərbaycan şairləri içərisində də öz fəlsəfi-poetik düşüncəsinə, təbliğ etdiyi fikirlərinə görə Nəsimiyə ən çox yaxın olan məhz Bəxtiyar Vahabzadədir, – desək, yanılmarıq. Nəsimilik onun şeir və poemalarında, həmçinin pyeslərində özünün yeni mərhələsini yaşayır. Amma, təbii ki, XX əsrin poetik təfəkkürü formasında.

Nəsimi haqqında mənzum romanın müəllifi isə Xalq şairi Qabildir. Ədəbiyyatımızda Nəsimidən və Nəsimi obrazından söhbət açanda Qabilin «Nəsimi» poemasını xatırlamamaq olmur. Qabil bu poemaya ömrünün beş ilini həsr edib.

*Heç kimsə Nəsimi sözünü fəhm edə bilməz,*
*Bu quş dilidir, bunu Süleyman bilir ancaq.*

Qabil də mümkün qədər bu «quş dili»ni öyrənməyə səy etmiş, Nəsiminin yaşadığı dövrü, o dövrün ictimai-siyasi hadisələrini, ən başlıcası isə şairin mənsub olduğu hürufilik təriqətinin mahiyyətini öyrənə-öyrənə Nəsimi əsrinə gedib çıxmışdır. Tarixi şəxsiyyətlərdən əsər yazan bir çox müəlliflər bəzən «müasirləşdirmə» yolu ilə gedirlər. Bir də görürsən ki, tarixdən bizə məlum olan şəxsiyyət (şair, sərkərdə, şah) sanki bu günün, bu dövrün adamıdır. Təbii ki, həmin tarixi şəxsiyyət

«müasirləşdiriləndə» öz sanbalını itirir. Tarixi şəxsiyyəti, xüsusilə klassik sənətkarı zorla «müasirləşdirmək» olmaz! Belə demək mümkünsə, klassikə doğru getmək, onu mahiyyətcə dərk etmək lazımdır. Çünki müasirliyin kökü və mənşəyi də klassikadan, ənənədən gəlir. Qabil də məhz bu yolu seçmişdi.

Mərhum prezidentimiz Heydər Əliyev Qabilin 70 illik yubileyində demişdi: «Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Doğrudan da, o, çox böyük bir iş idi və Qabil bu işi gördü. Bu, həqiqətən, Dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi».

«Nəsimi» poeması dahi Azərbaycan şairinin həyatı, sənət yolu, fəlsəfi dünyası və faciəli ölümü barədə poeziyamızda ilk böyük əsərdir. Nəsimi böyüklüyünə və onun faciəli ölümünə çoxlu şeirlər həsr edilsə də, gəlin etiraf edək ki, Nəsimi obrazını ən dolğun şəkildə, özü də lirik-epik planda Qabil yaratmışdır. Bu poemadan az sonra görkəmli yazıçımız İsa Hüseynov «Məhşər» romanını yazdı və hər iki əsəri o dövrdə ədəbi hadisə hesab edənlər yanılmamışlar.

Poemada həm əruz vəznindən, onun müxtəlif bəhrlərindən, həm də heca vəznindən, onun da çeşidli formalarından istifadə olunur. Qabildə çox güclü əruz duyğusu var. O, müasir Azərbaycan poeziyasında əruzun musiqisini, ritmini, ahəngini şeirdə yaşadan şairlərdən biri və bəlkə də, birincisidir. Qabil hadisələri Nəsiminin dili ilə şərh edir. Bütün əsər boyu Nəsimi sanki Qabilin əlindən tutub onu Şamaxıdan, Bakıdan, İrandan, Suriyadan, ərəb şəhərlərindən keçirir, hürufiliyi bir həqiqət kimi, Allahı insanda axtarmaq həqiqəti kimi dərk etdirir. Və beləliklə, Qabil də Nəsimiləşir. Əsərin final səhnəsinə diqqət yetirək:

«Zahidin bir barmağın kəssən,
dönüb həqdən qaçar,
Gör bu məğrur aşiqi sərpa soyarlar,
ağrımaz»
Fəqət qanım axır, saralıram mən,
Şənqəşül Hənəfi qayıdır birdən,
İstehzayla deyir gözlərində kin:
– Əgər Allahsansa, axdıqca qanın,
Söylə, bəs nə üçün saralır rəngin?
– Mən eşqin fəcrində qızıl atəşəm,
Zahid, saralmazmı sönəndə atəş?
Mən eşq üfüqündə doğan Günəşəm,
Saralar qüruba dönəndə Günəş!

Xalq şairi Rəsul Rzanın «Son gecə» poeması da Nəsimi haqqında ən dəyərli əsərlərdən biridir. Əsər 1973-1974-cü illərdə qələmə alınıb. Amma Rəsul Rzanın Nəsimi axtarışları altmışıncı illərin sonlarında başlamışdı. «Cahana sığmayan şairin qərib məzarı» Azərbaycan mədəniyyət xadimlərinin Suriyaya səfərindən sonra yazılmışdı. Bu yazıda Rəsul müəllim Hələb şəhərində Nəsiminin qəbrini axtardığından, qəbri tapıb onu ziyarət etdiyindən söz açır. Rəsul Rzanın «Böyük şair haqqında qeydlər», «Nəsiminin bir beyti haqqında» məqalələri də altmışıncı illərin sonlarında qələmə alınıb və görünür, Nəsimi poeziyasına və şəxsiyyətinə maraq təsadüfi deyilmiş. Yeri gəlmişkən, qeyd edim ki, Nəsiminin yaradıcılığı, Azərbaycan poeziyasında yeri, Nəsimi və hürufizimlə bağlı ədəbiyyatşünaslıq elmimizdə də son əlli ildə az iş görülməyib. M.Quluzadənin «Nəsimi» monoqrafiyası, həmçinin C.Qəhrəmanovun, Ə.Cəfərin, V.Feyzullayevanın, A.Rüstəmovanın, Ə.Səfərlinin, R.Əliyevin, S.Şıxıyevanın məqalə və monoqrafiyaları Nəsimişünaslıqda xeyli boşluğu aradan qaldırdı. Bu, əlbəttə, başqa bir söhbətin mövzusudur.

«Son gecə» poeması Nəsiminin zindanda – sabahkı edamdan qabaq düşüncələrini ifadə edir və bu, şairin keçilən məşəqqətli, amma şərəfli ömür yolu, həyat və insanlıq haqqında son qənaətləridir.

İmadəddin düşünür:

«Nədən,
insanlığın iztirab yolu
belə uzun, belə sonsuzdur?..
Əsrlər boyu
güc ədaləti susdurur».

Poemada Nəsiminin dönməzliyi, əqidəsi yolunda ölümə belə göz qırpmamağı onun zindan gözətçisi ilə söhbətində öz ifadəsini tapır və bu dialoqda-söhbətdə Nəsimilik meyarı belə açıqlanır:

Sükutu pozur qoca.
«Ya şeyx, niyə tövbə etmədin?
Səni bağışlardı məzhəb, din».
«Qoca!
Böyük həqiqətə,
doğru sözümə tövbə deyimmi?
Mən deyirəm, Allahın
canlı təcəssümü
sənsən, mənəm,
Allahın damlası
İnsan özüdür.
İnsan düşüncəsi,
doğru sözüdür.
Bax, budur Allah...»

Ümumiyyətlə, Nəsimi şəxsiyyətinə və Nəsimiliyə poeziyanın müraciəti keçən əsrin 60-80-ci illərində daha güclü idi. Görünür, bunun əsas səbəbi də böyük şairin 600 illiyi ilə bağlı idi. Nəsimi haqqında ən gözəl şeirlər, poemalar məhz o illərdə yazıldı. Təbii ki, bu yazıda Nəsimi obrazının Azərbaycan şeirində necə əks olunduğunu bircə-bircə, misallarla açıqlamaq mümkün deyil. Ancaq üç şeir haqqında söz açmamaq insafsızlıq olardı. Əliağa Kürçaylının «Nəsimi» şeirində şair rəssama Nəsiminin şəkli necə olmalıdır tövsiyəsini verir.

Qardaşım, bircə ricam var ancaq:
Sən Nəsimini çəkərkən elə çək,
Baxışından səpələnsin şimşək.
Günəşin nurunu doldur gözünə,
Kişilik nəqş elə dönməz üzünə.
Kişilik-atəşə yansın dönməz!
Soyunub buzda uzansın-dönməz!
Gözü xəncərlə oyulsun-dönməz!
O salar heyrətə allahları da,
Söyləyər, Tanrı da, Allah da mənəm.

İsa İsmayılzadənin səksəninci illərdə yazdığı «Heykəl Nəsiminin monoloqları» şeirində Nəsiminin edamqabağı son sözlərini eşidirik. O, üzünü gələcək nəsillərə tutub deyir:

Məni qınamayın,
600 yaşı var axan qanımın.
Əsrlər üstündə, illər üstündə
Nifrət bayrağıtək uca tutduğum,
Sevgi bayrağıtək uca tutduğum,
Yellənə-yellənə yol gələn qanım
Axır bir gün gəlib sizə çatacaq,
Axacaq, axacaq damarınızda,
Mən də axacağam damarınızda.

Ancaq Əli Kərimin «Şəhidliyin zirvəsi» şeiri, fikrimizcə, Azərbaycan poeziyasında Nəsimi haqqında, onun şəhidliyi barədə yazılan şeirlərdən ən nadiri, ən kamilidir. Hətta deyə bilərəm ki, İsa Hüseynovun «Məhşər»i nəsrdə, Qabilin «Nəsimi»si epik poeziyada, Bəxtiyar Vahabzadənin «Fəryad»ı dramaturgiyada hansı ucalıqda dayanırsa, Əli Kərimin «Şəhidliyin zirvəsi» də şeirdə o ucalıqda yer tutur. «Azərbaycan ədəbiyyatında Nəsimi obrazı» qeydlərimi də Əli Kərimin həmin şeirindən bir parça ilə bitirirəm:

Altı yüz ildir, idrak
çırpınır pələng kimi,
nərə çəkir, ağlayır,
tapa bilmir ki, bilmir-
o, bir sirri-xudanı.
Təpədən-dırnağadək
soyalar bir adamı;
Necə ola, dinməsin,
Böyük əqidəsindən
Bir misralıq enməsin?
Gözündən bir nöqtə yaş
sinəsinə düşməsin.
Qaşları çatılmasın
bir xırda vergül qədər.
Diri-diri soyulsun,
əqidədən keçməsin.
Altı yüz ildir, bəşər
ağrılardan inildər.
Altı yüz ildir, bəşər
düşünər, çatmaz yenə
məşəqqətli ölümün
Nəsimi zirvəsinə.